# Xalqın arzularını gerçəkləşdirən mahir sərkərdə

**_Uzun illər ərzində erməni faşizmi hiyləgər, rəzil, işğalçı siyasəti ilə Azərbaycan torpaqlarını qarış-qarış ələ keçirib, ərazisini hissə-hissə böyüdüb. Bu, ötən əsrin 90-cı illərinin sonunda daha geniş miqyas alıb. Düşmən Qarabağ və Şərqi Zəngəzuru tapdaq altına salıb, xalqımıza soyqırımı yaşadıb, bu ərazilərdə misli görünməyən barbarlıqlar, vəhşiliklər törədib. Həmin dövrdə Ermənistan havadarlarının gücünə arxalanaraq və Azərbaycanda hökm sürən qarışıqlıqdan və hakimiyyətsizlikdən yararlanaraq işğalı davam etdirib. Nəhayət, ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi ilə atəşkəs əldə olunub. Bundan sonra isə Azərbaycanda siyasi, sosial-iqtisadi, hərbi sahələrdə islahatlara başlanılıb._**

Ümummilli lider Heydər Əliyev bu dövrdə qarşıya respublikanı siyasi, iqtisadi böhrandan çıxarmaq, ölkəmizin mövqeyini beynəlxalq aləmdə gücləndirmək, ordu quruculuğunda islahatların həyata keçirilməsini diqqət mərkəzində saxlamaq kimi mühüm vəzifələr qoydu. Bütün bu işlərdə başlıca məqsəd isə torpaqlarımızın xilası, geri alınması üçün əlverişli şərait, hüquqi baza, güclü ordu yaratmaq idi.

Dahi şəxsiyyətin yorulmaz səyi, müdrik, uzaqgörən siyasəti nəticəsində qısa vaxt ərzində Azərbaycanda hökm sürən xaos aradan qaldırıldı, müstəqilliyimiz möhkəmləndirildi, sağlam idarəetmə formalaşdırıldı, xalq-iqtidar birliyinə nail olundu, bütün bunlarla bərabər, güclü, qüdrətli ordunun da əsası qoyuldu. Belə genişhəcmli zəruri işlər çox keçmədi ki, öz müsbət nəticəsini göstərdi, yüksək səviyyədə formalaşdırılan ordunun gücü ilə Horadiz düşməndən azad edildi. Bu hərbi uğur, həm də Azərbaycanın işğal altındakı torpaqlarının müharibə yolu ilə azad olunmasının mümkünlüyünü də təsdiqlədi.

Təəssüf ki, ulu öndərin Qarabağ və ətraf rayonlarımızı düşməndən tamamilə təmizlənməsi missiyasına ömür vəfa etmədi. Lakin müdrik şəxsiyyət siyasi varisi İlham Əliyevin bu müqəddəs vəzifəni ləyaqətlə gerçəkləşdirəcəyinə qəlbən əmin idi. Ona görə də Heydər Əliyev 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkiləri ərəfəsində xalqa müraciətində özünün siyasi varisinin namizədliyinin dəstəklənməsini tövsiyə etdi. Bu istək təsadüfdən irəli gəlmirdi. Bu əminliyi şərtləndirən əsas cəhət İlham Əliyevin qətiyyətli, iradəli olması, müdrik dövlət xadiminin formalaşdırdığı milli dövlətçilik məktəbindən uğurla bəhrələnməsi ilə bağlı idi.

Həmin müraciətdən artıq 18 il ötüb. Prezident İlham Əliyev bu dövrdə Azərbaycanı düşmən qüvvələrin caynağına düşmək, daxildən parçalanmaq, inkişafdan, tərəqqidən geri salmaq, ən əsası isə Qarabağın işğalı ilə barışmağa məcbur etmək kimi təhlükələrə qarşı mərdliklə, qətiyyət və əzmlə mübarizə aparıb, xalqımızın üzləşdiyi problemləri müdrik siyasəti ilə aradan qaldırıb, beynəlxalaq aləmdə özünü müstəqil, heç kimdən asılı olmayan bir dövlət rəhbəri kimi tanıdıb. Eyni zamanda, Azərbaycana çox sayda uğurlar qazandırmaqla ölkəmizi inkişafının ən yüksək zirvəsinə ucaldıb, dünyada söz və nüfuz sahibinə çevirib. Xalq-iqtidar birliyi, insanların qayğı və problemlərinə həssas münasibət, rifahın yaxşılaşdırılmasının diqqət mərkəzində saxlanılması respublikada əmin-amanlığı şərtləndirib. Nümunəvi iqtisadi inkişaf modelinin tədbiqi ilə innovativ əsaslı güclü iqtisadiyyat formalaşdırıb, bu isə Azərbaycanın tərəqqisində lokomotiv rolu oynayıb. Həmçinin belə bir şərait respublikamızda sabitliyin möhkəmlənməsinə, vətəndaş məmnunluğunun bərqərar olmasına, xalqın öz liderinin ətrafında sıx birləşməsinə, ona inamının güclənməsinə gətirib çıxarıb.

**_(ardı 3-cü səhifədə)_**





# Xalqın arzularını gerçəkləşdirən MAHİR SƏRKƏRDƏ

*(əvvəli 1-ci səhifədə)*

Dövlət başçısının müstəqil və milli maraqlara əsaslanan müdrik xarici siyasəti nəticəsində Azərbaycan bu gün dünyada regionun güc mərkəzi kimi tanınıb, qüdrətli və nüfuzlu milli subyektə çevrilib. Ölkəmizin təşəbbüsü və liderliyi ilə mühüm nəqliyyat və enerji layihələrinin reallaşdırılmasına nail olunub. İkitərəfli və çoxşaxəli formatda əməkdaşlıq platformalarının yaradılması isə Azərbaycana mühüm iqtisadi mənfəət və siyasi dividendlər qazandırıb.

Son 18 ildə xalqımızın şərəfli dövlətçilik tarixinin zirvə hadisəsi Azərbaycanın ərazi bütövlüyünün–haqq-ədalətin bərpasına nail olunmasıdır. Bu, möhtəşəm siyasi və hərbi uğur dövlətçilik tariximizdə bənzəri olmayan şanlı Zəfər təntənəsidir. Bu, misli görünməyən Qələbə Azərbaycanın hərbi gücünün, iqtisadi potensialının, beynəlxalq aləmdə siyasi nüfuzunun, söz sahibliyinin məntiqi nəticəsidir.

Prezident İlham Əliyev Qarabağı və Şərqi Zəngəzuru erməni faşizmindən təmizləyərək, bu bölgəni maraqlar uğrunda çəkişmələrdən, ziddiyyətlərdən, toqquşmalardan birdəfəlik xilas etdi, eyni zamanda, bu möhtəşəm qələbə ilə dövlətimizin başçısı Ali Baş Komandan olaraq dahi öndər Heydər Əliyevin ata vəsiyyətini gerçəkləşdirdi. Bununla yanaşı, bütün dünyaya Azərbaycanın haqlı tərəf olduğunu, Vətən savaşına Ermənistanın saysız-hesabsız təxribatına, düşmənin yeni torpaqlarımızı işğal etmək iddiasına son vermək məqsədilə əks-həmlə əməliyyatları ilə başladığını bildirdi. Azərbaycan müharibədə qələbə əldə etməklə ərazi bütövlüyü uğrunda döyüş aparmağa, qələbə qazanmağa qadir güclü ordusunun mövcudluğunu düşmənə və havadarlarına xatırlatdı. Silahlı Qüvvələrimizin döyüşlərdə reallaşdırdığı unikal əməliyyatlar da bunun bariz ifadəsi idi.

Ümumiyyətlə, Prezident İlham Əliyev İkinci Qarabağ savaşına qədərki 17 ildə Silahlı Qüvvələrimizin mənəvi-psixoloji, döyüş ruhu, sosial, ictimai, texniki-təchizat, silah-sursat, peşəkarlıq məsələlərini daim diqqət mərkəzində saxladı. Dövlətimizin başçısı ordunun döyüş hazırlığının bütün tələblərini yerinə yetirmək üçün şərait yaradılmasına–irimiqyaslı təlimlərin keçirilməsinə, hərbçilərin müasir silahlarla silahlandırılması, artilleriya və aviasiyanın, eləcə də digər sahələrin inkişaf etdirilməsinə, əsgər və zabitlərin ruh yüksəkliyinin gücləndirilməsinə mühüm önəm verdi. Bax, elə bu tədbirlərin məntiqi nəticəsi idi ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz 44 gün davam edən müharibədə möhtəşəm qələbə qazanaraq, dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı, Ermənistanın "güclü, məğlubedilməz" ordu mifini birdəfəlik darmadağın etdi. Beləliklə, bir sıra hərbi ekspertlərin sözləri ilə desək, Azərbaycan Vətən savaşında XXI əsrin müharibəsini apardı, bu əsrdə ilk dəfə olaraq, geniş miqyasda və səmərə ilə qısa müddət ərzində möhtəşəm tarixi uğur əldə etdi.

Burada bir məqamı da mütləq xatırlatmaq istərdik. Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi, İkinci Qarabağ müharibəsi təkcə silahla, hərbi texnika ilə əldə edilmədi. Bu, həm də döyüşlərdə qəhrəmanlıq, şücaət göstərən, mərdlik nümayiş etdirən və düşməndən təmizlənən ərazilərdə Azərbaycan bayrağını ucaldan hərbçilərimizin Vətən, yurd sevgisinin məntiqi nəticəsi idi: "Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular. Şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların valideynlərinə Allah səbir versin! Yaralı hərbçilərimiz var, onlar da sağalırlar. Onların bir çoxu artıq sağalıb. Allah onlara şəfa versin! Biz qəhrəman əsgər və zabitlərimiz hesabına qələbə qazanmışıq. Təkcə Şuşanın işğaldan azad edilməsi əməliyyatı, əminəm ki, tarixdə əbədi qalacaq. Demək olar ki, yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik".

Bəli, Şuşa uğrunda aparılan döyüşlərdə Azərbaycanın hər bir əsgər və zabiti şəxsi peşəkarlıq nümayiş etdirdi. Müzəffər Azərbaycan Ordusu qeyri-adi şücaət göstərərək, hərb tarixinə düşəcək bir səviyyədə döyüşdü, qayalara dırmaşaraq şəhərə daxil oldu, yaxın məsafədən əlbəyaxa savaş apardı. Silahlı Qüvvələrimiz bununla da müasir döyüş tarixində tamamilə yeni bir səhifənin əsasını qoydu.

Bununla da Ermənistan və onu havadarlarını "Qarabağ Azərbaycandır və nida" ifadəsi qarşısında acı məğlubiyyətə uğratdı, respublikamızı beynəlxalq aləmdə yüksək nüfuza sahib ölkəyə, etibarlı tərəfdaşa və regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevirdi. Dövlətimizin başçısı 2003-cü ildə keçirilən andiçmə mərasimində səsləndirdiyi "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" bəyanatına sadiqliyini, sözü ilə əməli arasında heç bir uçurum nəzərə çarpmayan qalib Prezident olduğunu təsdiqlədi.

Ali Baş Komandan cənab İlham Əliyev Vətən müharibəsində əldə edilən parlaq qələbə ilə bütün dünyaya barış, sülh, əmin-amanlıq tərəfdarı, ölkələr arasında əməkdaşlıq, dostluq təşəbbüskarı kimi tanındı. Azərbaycan Prezidenti İkinci Qarabağ savaşı ilə erməni faşizminin işğalçı siyasətinə son verməsi türk dünyasında yüksək dəyərləndirildi. Türkdilli ölkələrin Dövlət Başçıları Şurasının qərarı ilə ərazilərimizin düşməndən təmizlənməsini, ərazi bütövlüyümüzün bərpasını gerçəkləşdirərək türk birliyinə mühüm töhfə verən və Cənubi Qafqazda, həmçinin Qarabağ və Şərqi zəngəzurda davamlı sülhün, sabitliyin reallaşmasını şərtləndirən tarixi Zəfərə görə "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi də bunun bariz ifadəsi idi.

Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsində qətiyyətli, müdrik siyasəti, mahir sərkərdə fəaliyyəti ilə Ermənistan və onun havadarlarının acı məğlubiyyətindən sonra xalqımızın qalib Prezidentinə və qəhrəman Azərbaycan Ordusuna inamı daha da gücləndi. Artıq bir ildir ki, ölkəmiz bu inam və etimadla İkinci Qarabağ savaşında olduğu kimi, Qarabağın bərpasında da gücünü bütün dünyaya nümayiş etdirir. Azərbaycan işğaldan azad edilən ərazilərdə nəhəng quruculuq işləri həyata keçirməklə bir daha bu torpaqların əsl sahibi olduğunu dünyaya göstərir.

Düşməndən təmizlənən ərazilərin yenidən qurulması və bərpası sürətlə həyata keçirilir. Naxçıvan Muxtar Respublikasına çıxışa imkan verən Zəngəzur nəqliyyat dəhlizinin Azərbaycan tərəfindəki Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd hissəsində tarixi layihə reallaşdırılır. Qarabağ "yaşıl iqtisadiyyat" əsasında qurulur, dünya iqtisadiyyatı bu bölgəyə ayaq açır, dəstək proqramları uğurla həyata keçirilir. Bununla bərabər, Böyük Qayıdış proqramı çərçivəsində müasir texnologiyalara əsaslanan "Ağıllı şəhər", "Ağıllı kənd" layihələri uğurla icrası olunur.

Yuxarıda vurğulananlara əsaslanıb qeyd edə bilərik ki, Azərbaycan bu gün özünün ən şərəfli, məsuliyyətli və tarixi dövrünü yaşayır. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı inkişaf konsepsiyası xalqımızı tərəqqiyə, daha parlaq gələcəyə aparır. Bununla da cənab İlham Əliyevin 18 il bundan əvvəl vəd etdiyi "hər bir azərbaycanlının Prezidenti olacağı" sözlərinin dövlət başçısının titanik fəaliyyəti ilə artıq təsdiqləndiyi sübut edilir.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***